# XARIBÜLBÜL...
## yurd həsrəti...

Deyirlər coşqun sular məcrasına sığmayanda ətraf sellərə qərq olar. Daşqınlar baş verəndə yer-göy sularda üzər, hiddət dalğaları şahə qaldırar, təbiətin bu ehtizası vulkanları püskürdər...

Duyğuların da sellər kimi təlatümlü məqamları olur...İnsan kamillik zirvəsinə də elə bu məqamlarda yetişər... Hisslər coşar, vəcdə gələr... O vəcd məqamı insan və tanrı arasındakı pərdələri qaldırar, insanın bəsirət gözlərini acar... O zaman insan tanrını dərk etdiyi kimi, tanrı da insanı duyar... Bəlkə bu möcüzə də körkəmli professor, Vidadi Əliyevin həmin məqamları yaşadığı anlarda baş vermişdir.



1992-ci il... May ayının 8-i... Radioda qədim və səfalı Şuşa şəhərinin erməni təcavüzkarları tərəfindən işğal olunduğu elan edilən an Qızılbaş" ləqəbi ilə tanınan professor Vidadi Əliyevin hikmət xəzinəsi olan, zəka dolu beyninə qan sızır, həmin gün vətən sevgisi ilə döyünən ürəyi azərbaycan elminin sutunu, özünün isə yaxın dostu və doğması Xudu Məmmədovun ürəyi kimi dayanmasa da cat verir. Həkimlər bir cox həblər sirasında ona bağlı-bağatlı təbiət qoynunda dincəlməyi də məsləhət bilir. Vidadi müəllimin qayğıkeşliyi ilə diqqət cəkən həyat yoldaşı Süsən Əliyeva Bakı ətrafında Novxanının Şuşaya bənzər bir yüksəkliyində yeləşən Sarı qayada bağ salıb həkimlərin məsləhəti ilə Vidadi müəllimi ora köcürür.



Professor Cıdır düzü, Gəlin qayası, Xarı bülbül deyə-deyə nalə cəkib, fəryad etdiyi məqamların birində qəflətən ağacların arasında fikirli- fikirli dolaşan Süsən xanım Xarı bülbül deyərək ucadan səslənir...

Allahla bəndə arasında olan bu təmas hər kəsi heyrətə gətirir. Bəli həmin gün tanrının ən böyük möcüzələrindən biri baş verir. Professor işğalda olan Şuşa şəhərinə gedib illərlə arzuladığı yalnız orada bitən və dünyanın nadir cicəklərindən olan Xarı bübülünü ziyarət etmək imkanından məhrum olsa da, xarı bülbülü onun yanına özü gəlmişdi. Professor dərindən köks ötürərək kədərli-kədərli cicəyə baxıb vətən həsrətindən zəif düşmüş halda:

Səhərin gülşən cağında gəl gəzginən bağı bülbül?
Vətən bağı al-əlvandır bura gəlib xarı bülbül...

..

Əvvəl hadisənin baş veməsinə inananlar az olsa da həqiqətin bir üzü olar demişlər. Az.Tv-dən gələn nümayəndələr Xarı-bülbül gülünü cəkib xəbərlərdə göstərərək şərhini də verirlər. Hazırda həmin cəkiliş qızıl fondda saxlanılır...

Cox yerində deyiblər: "Ot kökü üstdə bitər". Bu gün Vidadi Əliyevin özü kimi Vətənpərvər qızı Fatma Yıldırım da bir millət vəkili olaraq Şuşa ilə döyünən qəlbinin sədaları altında boynuna düşən vətən borcunu ləyaqətlə yerinə yetirir. Şanlı ordumzun sevimlisinə cevrilən Fatma Yıldırım vaxtaşırı olaraq onlara sovqatları, hədiyyələri ilə ruh yüksəkliyi göndərir. İlk şəhidlərimizdən olan, Şuşa ugrunda gedən döyüşlərdə həlak olan Milli qəhrəmanımız Cəlil Səfərovun bacısı Süsən Əliyeva, yəni Fatma Yıldırımın anası isə söyləyir ki, mən özümü yalnız Cəlil Səfərovun deyil, bütün şəhidlərin bacısı hesab edirəm və hər dəfə xiyabana gedərkən onların hamısını yad etməyi özümə borc bilirəm... Allah qardaşımla bərabər bütün şəhidlərimizin yerini behişt eləsin.

